Azərbaycan Respublikası
Mərkəzi Bankının İdarə Heyətinin
“07” mart 2024-cü il tarixli
qərarı ilə təsdiq edilmişdir
Protokol № 11

# AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ KREDİT TƏŞKİLATLARININ FƏALİYYƏTİNƏ DAİR SİYASƏT VƏ TƏNZİMLƏNMƏ DEPARTAMENTİ HAQQINDA
# Ə S A S N A M Ə

**BAKI - 2024**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının Kredit təşkilatlarının fəaliyyətinə dair siyasət və tənzimlənmə departamenti (bundan sonra - Departament) Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra - Mərkəzi Bank) mərkəzi aparatının struktur bölməsidir.

1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", “Banklar haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında”, “Poçt haqqında” Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarını, Mərkəzi Bankın normativ xarakterli aktlarını, İdarə Heyətinin və daxili komitələrin qərarlarını, Mərkəzi Bank üzrə əmrləri, sərəncamları və bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament bu Əsasnamə ilə müəyyən olunmuş funksiyaların yerinə yetirilməsi prosesində Mərkəzi Bankın digər struktur bölmələri və qurumları ilə fəaliyyətini əlaqələndirir.

1.4. Bu Əsasnamənin məqsədləri üçün kredit təşkilatları dedikdə bank, bank olmayan kredit təşkilatları, poçt rabitəsinin milli operatoru və valyuta mübadiləsi məntəqələri nəzərdə tutulur.

## 2. DEPARTAMENTİN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ

Departamentin fəaliyyətinin əsas məqsədi Mərkəzi Bankın səlahiyyətləri daxilində kredit təşkilatlarının fəaliyyəti ilə bağlı fərdi və sistem xarakterli risklərin təhlilinin aparılması, bu qurumların risklərdən qorunmasına və dayanıqlığının təmin edilməsinə xidmət edən əhatəli riskyönümlü prudensial tənzimləmə və nəzarət çərçivəsinin formalaşdırılması, habelə kredit təşkilatlarına və Mərkəzi Bankın müvafiq sahədə nəzarət funksiyasına metodoloji və informasiya dəstəyinin göstərilməsidir.

## 3. DEPARTAMENTİN ƏSAS FUNKSİYALARI

Departamentin əsas funksiyaları aşağıdakılardır:

3.1. kredit təşkilatlarının fəaliyyəti ilə bağlı fərdi və sistem xarakterli risklərin təhlilinin və simulyasiyaların aparılması;

3.2. təhlil və simulyasiya nəticələrinə əsasən risk əsaslı prudensial tənzimləmə və nəzarət üzrə siyasət təkliflərin formalaşdırılması;

3.3. bank sektorunun təhlili üzrə analitik hesabat və materialların hazırlanması;

3.4. prudensial nəzarət üzrə qabaqcıl beynəlxalq təcrübə və standartların, o cümlədən istifadə olunan mikro və makro-prudensial alətlərin yerli bazara tətbiqi imkanlarının qiymətləndirilməsi;

3.5. kredit təşkilatlarının fəaliyyətini tənzimləyən normativ xarakterli aktların və metodoloji rəhbərliklərin qabaqcıl beynəlxalq təcrübə və standartlara uyğun formalaşdırılması və təkmilləşdirilməsi;

3.6. prudensial tənzimləmə çərçivəsinin tələblərinin tətbiqi ilə əlaqədar kredit təşkilatlarına metodoloji dəstəyin göstərilməsi;

3.7. risk əsaslı nəzarətin tətbiqi, o cümlədən prudensial tənzimləmə çərçivəsinin tələblərinin kredit təşkilatları tərəfindən tətbiqinə nəzarət ilə əlaqədar Mərkəzi Bankın Kredit təşkilatlarının fəaliyyətinə nəzarət departamentinin əməkdaşlarına, habelə səlahiyyətinə aid məsələlər üzrə Mərkəzi Bankın digər struktur bölmələrinin əməkdaşlarına metodoloji dəstəyin göstərilməsi;

3.8. banklarda aparılan stress-testləşmə prosesi üzrə banklara metodoloji dəstəyin göstərilməsi, bankların apardığı stress-testlərin ekspertizadan keçirilməsi, bankların əldə edilmiş test nəticələrinin qiymətləndirilməsi, ekspertiza və qiymətləndirmə nəticələrinə əsasən nəzarət tədbirlərin tətbiqi üzrə təkliflərin verilməsi;

3.9. Departamentin büdcə layihəsinin hazırlanması və icrasının təmin edilməsi;

3.10. Departamentə aidiyyəti üzrə daxil olan müraciətlərə baxılması, məktub və sorğulara cavabların hazırlanması;

3.11. rəhbərliyin tapşırığı ilə səlahiyyətinə aid məsələlər üzrə arayışların və materialların hazırlanması;

3.12. rəhbərliyin tapşırığı ilə Departamentin fəaliyyət istiqamətləri üzrə digər işlərin yerinə yetirilməsi.

## 4. DEPARTAMENTİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏ OLUNMASI

4.1. Departamentin təşkilati strukturu aşağıdakı şöbələrdən və bölmələrdən ibarətdir:

4.1.1. Prudensial siyasət şöbəsi;

4.1.1.1. Banklarda stress-testləşmənin təhlili bölməsi;

4.1.1.2. Prudensial tənzimləmədə MHBS-nin tətbiqi bölməsi;

4.1.2. Prudensial tənzimləmə şöbəsi;

4.1.3. Nəzarətə metodoloji və informasiya dəstəyi şöbəsi.

4.2. Departamentə direktor rəhbərlik edir. Departament direktoru işdə olmadıqda onun səlahiyyətlərini direktor müavini (olduqda) həyata keçirir, bu şərtlə ki,

rəhbərlik tərəfindən direktor vəzifəsinin icrası şöbə rəislərindən birinə və ya digər şəxsə həvalə edilməsin.

4.3. Departamentin nomenklatur vəzifəli şəxsləri Mərkəzi Bankın İdarə Heyəti tərəfindən və ya İdarə Heyətinin müəyyən etdiyi qaydada vəzifəyə təyin və vəzifədən azad olunurlar.

## 5. DEPARTAMENTİN İŞİNİN TƏŞKİLİ

**5.1. Prudensial siyasət şöbəsi**:

5.1.1. kredit təşkilatlarının fəaliyyəti ilə bağlı fərdi və sistem xarakterli risklərin təhlilini və simulyasiyaları aparır;

5.1.2. bank sektorunun inkişaf strategiyasının hədəflərinə, qabaqcıl beynəlxalq təcrübə və standartlara, habelə risk təhlili və simulyasiya nəticələrinə əsaslanaraq kredit təşkilatlarının sabitliyinin və dayanıqlığının təmin edilməsinə yönəldilmiş Mərkəzi Bankın prudensial tənzimləmə və nəzarət siyasəti üzrə təklifləri hazırlayır;

5.1.3. mikro və makro-prudensial alətlərinin tətbiqi imkanlarını qiymətləndirir;

5.1.4. bank sektorunun təhlili üzrə analitik hesabat və materialları hazırlayır, onların Mərkəzi Bankın rəhbərliyinə və əlaqəli struktur bölmlərinə təqdim edilməsini təmin edir;

5.1.5. aidiyyəti struktur bölmələr tərəfindən aparılan maliyyə sabitliyinin təhlili, habelə bank sektoru üzrə Mərkəzi Bankda aparılan makro (top-down) stress-testləşmə üzrə rəy və təkliflər verir;

5.1.6. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.2. Banklarda stress-testləşmənin təhlili bölməsi:**

5.2.1. banklarda “bottom up” stress-testlərin keçirilməsi prosesi üzrə requlyativ tələblər, metodologiva və şablonlar üzrə təkliflər formalaşdırır;

5.2.2. banklarla aparılan “bottom-up” stress-testləşmə prosesini (o cümlədən test modelləri, ssenari və fərziyyələr, makro-iqtisadi şokların stress-test modellərinə inteqrasiyası) qiymətləndirir, banklar tərəfindən stress-test nəticələrinin onların risk idarəetməsi prosesində nəzərə alınmasını qiymətləndirir, stress-testlərin aparılması və modellərin təkmilləşdirilməsi üzrə banklara metodoloji dəstək göstərir, qiymətləndirmə nəticələrinə əsasən nəzarət tədbirlərinin tətbiqi üzrə təkliflər verir;

5.2.3. banklarda daxili kapital və likvidlik qiymətləndirilməsi proqramlarının (İCAAP/İLAAP) tətbiqi üçün prudensial tənzimləmə tələbləri müəyyən edir, tətbiqində banklara metodoloji dəstək göstərir.

**5.3. Prudensial tənzimləmədə MHBS-nin tətbiqi bölməsi:**

5.3.1. prudensial məqsədlər üçün təsnifləşdirmə və ehtiyatların yaradılması prosesinin MHBS (İFRS9) tələblərinə uyğunlaşdırılması üzrə simulyasiyaları aparır, müvafiq requlyativ tələbləri formalaşdırır;

5.3.2. konsolidasiya olunmuş prudensial tənzimləmənin tətbiqi üzrə requlyativ tələbləri, habelə hesabatlıq formaları üzrə beynəlxalq təcrübəni araşdırır və təklfilər verir;

5.3.3. prudensial nəzarət prosesində MHBS-in tələblərinin tətbiqi ilə, habelə konsolidasiya olunmuş nəzarətə keçidlə əlaqədar nəzarət subyektlərinə və Mərkəzi Bankın kredit təşkilatlarının fəaliyyətinə nəzarət departamentinin əməkdaşlarına metodoloji dəstək göstərir.

**5.4. Prudensial tənzimləmə şöbəsi**:

5.4.1. prudensial tənzimləmə çərçivəsi üzrə qabaqcıl beynəlxalq təcrübənin və standartların tətbiqi məqsədilə araşdırmalar aparır, nəticələri üzrə rəhbərliyə arayışlar və təkliflər hazırlayır;

5.4.2. Mərkəzi Bankın prudensial tənzimləmə və nəzarət siyasətinə, habelə kredit təşkilatlarının tənzimlənməsi üzrə qabaqcıl beynəlxalq təcrübə və standartlara uyğun olaraq kredit təşkilatlarının fəaliyyətinin tənzimlənməsinə dair normativ-metodoloji bazanı hazırlayır və mövcud bazanı təkmilləşdirir;

5.4.3. requlyativ tənzimləmə çərçivəsində nəzərdə tutulan yeni tələblər üzrə aidiyyəti struktur bölmələrin, rəhbərliyin və kredit təşkilatlarının mövqeyini qiymətləndirir, bu istiqamətdə aidiyyəti tərəflər, habelə beynəlxalq maliyyə institutlarının ekspertləri ilə daim dialoqun aparılmasını təmin edir;

5.4.4. kredit təşkilatlarının fəaliyyətini tənzimləyən hüquqi aktların hazırlanması prosesində iştirak edərək aidiyyəti üzrə rəy və təkliflər verir;

5.4.5. prudensial tənzimləmə tələblərinin tətbiqi, habelə səlahiyyətlərinə aid digər məsələlər üzrə kredit təşkilatlarına metodoloji dəstək göstərir;

5.4.6. kredit təşkilatlarından, habelə beynəlxalq təşkilatlardan və yerli qurumlardan daxil olan sorğuların aidiyyəti üzrə cavablandırılmasını təmin edir;

5.4.7. aidiyyəti dövlət orqanlarının (qurumlarının) kredit təşkilatlarının fəaliyyətinə aid olan hüquqi akt layihələrinə dair bank nəzarəti üzrə yerli

qanunvericiliyə, habelə beynəlxalq təcrübə və standartlara əsaslanaraq rəy və təkliflər hazırlayır;

5.4.8. Departamentin icraçı olduğu layihə və proqramları, habelə iştirak etdiyi işçi qrupları üzrə müəyyən edilmiş tədbirlər planının icrasına dair hesabatlığı təmin edir;

5.4.9. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.5. Nəzarətə metodoloji və informasiya dəstəyi şöbəsi**:

5.5.1. prudensial tənzimləmə tələblərinin kredit təşkilatları tərəfindən tətbiqinə nəzarət ilə əlaqədar Mərkəzi Bankın kredit təşkilatlarının fəaliyyətinə nəzarət və digər aidiyyəti struktur bölmələrinin əməkdaşlarına metodoloji və informasiya dəstəyi göstərir

5.5.2. kredit təşkilatlarına risk əsaslı nəzarətinə keçidin təmin edilməsi üçün beynəlxalq təcrübəni araşdırır, bu istiqamətdə beynəlxalq maliyyə təşkilatlarının ekspertləri ilə müzakirələr aparır və müvafiq metodoloji sənədləri hazırlayır;

5.5.3. risk əsaslı nəzarətin tətbiqi üçün müvafiq informasiya və hesabatlıq sisteminin modernizasiyasında, o cümlədən nəzarət informasiya sistemi (SupTech) alətlərinin tətbiqində iştirak edir;

5.5.4. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

## 6. YEKUN MÜDDƏALAR

6.1. Bu Əsasnamə təsdiq edildiyi gündən qüvvəyə minir.

6.2. Bu Əsasnamə qüvvəyə mindiyi gündən Mərkəzi Bankın İdarə Heyətinin 23 oktyabr 2020-ci il tarixli qərarı (protokol № 43) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Mərkəzi Bankının Prudensial siyasət və metodologiya departamenti haqqında Əsasnamə" ləğv edilir.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**